www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-12 (1729) 29 iyun 2021-ci il



## Dərsdə nə qədər çətin olarsa, imtahanda o qədər asan olar

### Azərbaycan Tibb Universitetində Yekun Dövlət Attestasiyası uğurla davam edir

səh. 2

## Çin universitetinin təhsil kursunda 500-dən çox müəllim və tələbəmiz iştirak edəcək



**İyunun 18-də Çin Xalq Respublikasının Gansu Çin Təbabəti Universitetinin (GÇTU) təşkil etdiyi "Ənənəvi Çin Təbabəti. Sağlamlıq Təhsili Proqramı" adlı onlayn kursun açılış mərasimi keçirilib. Açılış mərasimini GÇTU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Zheng Guisen açaraq, Gansu əyalətinin ənənəvi Çin təbabətinin mərkəzi, GÇTU-nun isə bu sahədə ölkənin qabaqcıl təhsil müəssisəsi olduğunu vurğulayıb.**

O, sonra GÇTU-nun "Bir kəmər, bir yol" təşəbbüsünə qatıldığını və bu layihə üzrə Fransa, Tailand, Moldova, Ukrayna, Qırğızıstan və Rusiya da daxil olmaqla, dünyanın 9 ölkəsində ənənəvi Çin təbabəti institutlarının açıldığını diqqətə çatdırıb. Natiq ATU ilə də təhsil və elm sahəsində ikitərəfli əməkdaşlığın inkişafında maraqlı olduqlarını söyləyib.

Daha sonra söz Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucova verilib. O, tədbir iştirakçılarını ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından salamlayıb, universitet haqqında məlumat verib. M.Orucov "Bir kəmər, bir yol" layihəsi daxilində ÇXR universitetləri ilə olan əməkdaşlıq fəaliyyətindən bəhs edib. Belə ki, Çin Tibb Universiteti ilə BRIMEA – "Bir kəmər, bir yol - Beynəlxalq Tibb Təhsili Alyansı" və GÇTU ilə "Bir kəmər, bir yol - Universitetlər Alyansı" layihələrində müxtəlif proqramlar üzrə tədbirlər təşkil olunub. Bu tədbirlərdən biri də ATU tələbələrinin Çin Tibb Universitetinin onlayn dərslərində iştirak etməsidir.

Qeyd edək ki, "Ənənəvi Çin Təbabəti. Sağlamlıq Təhsili Proqramı" kursunda ATU-nun 500-dən çox müəllim və tələbəsi iştirak edəcək. Kursun əsas mövzuları "Pediatrik masaj", "Ayaq masajı", "Dietoterapiya" və "Akupunktura masajı"dır.

Açılış mərasimində ATU-nun Tibb təhsili və innovasiya şöbəsinin müdiri Aynur Orucova, Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Ələkbərova da iştirak ediblər.



### Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib

*Universitetin ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup əməkdaşa Fəxri fərmanlar və pul mükafatları təqdim olunub*

səh. 3

### Universitetimizin məzunları bu gündən sabaha bilikli, özünəinamlı və məqsədyönlü gənclər kimi addımlayırlar

səh. 4-5

### İctimai səhiyyə fakültəsində praktiki bacarıq təlimlərinə start verilib

səh. 6



### Bioloji fəal qida əlavələri: almazdan öncə araşdırın

*Nərgiz Məmmədova: Bu tip məhsulların apteklərdə, superpermarketlərdə satışı sahəsində islahatlar gözlənilir*

səh. 7

# Rektor imtahanların gedişini izləyib

## Professor Gəray Gəraybəyli imtahanların tam obyektiv keçirilməsi üçün bundan sonra da bütün tədbirlərin görüləcəyini bildirib

**Universitetimizdə imtahan prosesi davam edir. İyunun 23-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli Hərbi tibb fakültəsində V kursun aralıq qiymətləndirmə imtahanının gedişini izləyib, fakültənin kampusunda yaradılan şəraitlə tanış olub.**





Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov, onun tədris işləri üzrə müavini, tədris şöbəsinin rəisi Məharət Rzayev və ATU-nun tədris şöbəsinin müdiri Samir Cavadov görüşdə iştirak ediblər.

Simulyasiya otaqları ilə tanışlıq zamanı Ç.Əlləzov burada hər şeyin müharibə vəziyyətinə uyğun təşkil edildiyini, hərbi hissə və real döyüş şəraitinin maketlərinin qurulduğunu bildirib.

Professor Gəray Gəraybəyli Azərbaycan tarixinin şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsini yada salaraq, bu dövrdə Hərbi tibb fakültəsinin üzərinə böyük yük düşdüyünü, bu fakültədən məzunlarımızın müharibə vaxtı öz vəzifələrini layiqincə yerinə yetirdiklərini vurğulayıb. Rektor təəssüf hissi ilə qeyd edib ki, müharibədə şəhidlərimiz və yaralılarımız da oldu: "Xalqımız şəhidlərimizi heç vaxt unutmayacaq. Qazilərimiz isə dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub".

O, builki məzunlarımızın da digər hərbçilərimizlə birlikdə torpaqlarımızın keşiyində əzmlə dayanacaqlarına və xidmət zamanı öz peşə borclarını şərəflə yerinə yetirəcəklərinə əminliyini bildirib. G.Gəraybəyli tələbələrə imtahanlarda və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Hərbi tibb fakültəsində kitabxana, 3 mühazirə və 1 brifinq zalı ATU-nun II Qarabağ müharibəsində şəhid olmuş məzunlarının adını daşıyır.

İyunun 24-də isə rektor Gəray Gəraybəyli 2020/2021-ci tədris ilinin yay semestrinin imtahan sessiyası çərçivəsində V kurs tələbələrinin imtahanını izləyib. Görüşdə ATU-nun Tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev, Tədris şöbəsinin müdiri Samir Cavadov, İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova iştirak ediblər.

Rektor imtahan gedən auditoriyalarda tələbələrə öz biliklərini nümayiş etdirmək üçün yaradılan şəraitlə əyani şəkildə tanış olub, auditoriyaya daxil olmazdan əvvəl görülən təhlükəsizlik tədbirlərinin (hərarətin ölçülməsi, ara məsafəsinin saxlanılması) icrası ilə maraqlanıb. Eyni zamanda, tələbələrin və imtahan komissiyası üzvlərinin imtahanların gedişi ilə bağlı fikirlərini dinləyib, bəzi məsələlərlə bağlı müvafiq tapşırıqlar verib. Professor Gəray Gəraybəyli imtahanların tam obyektiv və şəffaf şəkildə keçirilməsi üçün bundan sonra da bütün lazımi tədbirlərin görüləcəyini bildirib.

Qeyd edək ki, imtahan sessiyasının gedişini canlı izləmək, tələbələrlə birbaşa ünsiyyətdə olmaq məqsədilə rektor başda olmaqla universitet rəhbərliyi tərəfindən mütəmadi reydlər həyata keçirilir.

# Dərsdə nə qədər çətin olarsa, imtahanda o qədər asan olar

## *Azərbaycan Tibb Universitetində Yekun Dövlət Attestasiyası uğurla davam edir*



**ATU-da Yekun Dövlət Attestasiyası uğurla davam edir. Nazirlər Kabinetinin qərarına əsasən, bacarıq imtahanları əyani, test imtahanları isə onlayn formatda təşkil olunub. İmtahan prosesinin ümumi mənzərəsi haqda təsəvvür yaratmaq üçün iki imtahanda iştirak etdik.**

Belə ki, iyunun 18-də Hərbi tibb fakültəsinin binasında təşkil olunan imtahan zalında olduq. Buraxılış kurs tələbələri üçün Tibb xidmətinin təşkili və taktikası fənni üzrə Yekun Dövlət İmtahanını izlədik. İmtahanda 71 kursant iştirak edirdi. Heç bir qayda pozuntusu qeydə alınmadan kursantlar sonuncu imtahanlarını da müvəffəqiyyətlə verərək, öyrəndikləri bilik və bacarıqları xidmətləri zamanı layiqincə tətbiq etmək hüququ qazandılar.

Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin Planlaşdırma şöbəsinin rəisi, Tibb xidmətinin təşkili və taktikası fənni üzrə yardımçı komissiyanın sədri, tibb xidməti polkovnik-leytenantı Rəşad Behbudov bildirdi ki, imtahanda kursantların praktiki bilikləri qiymətləndirilir: "Kursantların əksəriyyəti müvəffəqiyyət qazanıb və yüksək bal toplayıb".

Hərbi tibb fakültəsinin dekan müavini, Dövlət Attestasiya Komissiyasının katibi, tibb xidməti polkovniki Məharət Rzayev həm əvvəlki imtahanlar, həm də indi keçirilən imtahanla bağlı ətraflı məlumat verdi: "Ümumi cərrahiyyə və hərbi səhra cərrahiyyəsi, Terapiya və hərbi səhra terapiyası fənləri üzrə Dövlət Attestasiyası keçirilib. Bu gün də Tibbi xidmətin təşkili və taktikası fənni üzrə Dövlət Attestasiyası keçirilir. Cərrahiyyə və hərbi səhra cərrahiyyəsi imtahanından 29 nəfər "A", 39 nəfər "B", 3 nəfər "C" qiyməti alıb. Terapiya və hərbi səhra terapiyası fənnindən isə tələbələrin 28-i "A", 39-u "B", 4-ü "C" qiyməti alıb.



Bugünkü imtahandan isə tələbələrin 64-ü "A", 7-si "B" qiyməti aldı. Hamısı müvəffəqiyyət qazandı. Onu da qeyd edim ki, Azərbaycan Tibb Universitetinin Simulyasiya Mərkəzindən başqa, Hərbi tibb fakültəsinin simulyasiya kabineti var və mulyajlarla təmin olunub. Əvvəl dövlət imtahanları universitetdə keçirilirdi. Amma bu ildən etibarən imtahanları fakültəmizin binasında mulyajlarımız üzərində təşkil etdik".

İyunun 21-də isə II Müalicə-profilaktika fakültəsinin buraxılış kurs tələbələri üçün Cərrahi xəstəliklər fənni üzrə Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanın (OSKİ) gedişini izlədik.

Əvvəlcə fakültə üzrə Dövlət Attestasiya Komissiyasının sədri, professor İlqar Qasımovun imtahanla bağlı fikirlərini öyrəndik. O bildirdi ki, tələbələrin çoxunun həm COVID mərkəzlərində çalışdığını, həm də müharibədə yaralılara tibbi yardım göstərdiyini nəzərə alaraq, imtahanlarda bir qədər zəif nəticələr gözləyirmişlər: "Amma gözlədiyimizin əksi oldu. Əminliklə deyə bilərik ki, tələbələrin praktiki hazırlığı yüksək səviyyədədir".

Dövlət Attestasiya Komissiyasının sədr müavini, professor Vəsadət Əzizov isə imtahanın, əslində imtahan öncəsi vəziyyətdən başladığını deyir: "Yeni imtahandan əvvəl tələbələr müəllimlərin köməkliyi ilə praktiki fəaliyyətdə aktiv iştirak ediblər. Onların çoxsaylı sualları da müəllimlər tərəfindən cavablandırılıb. Faktiki olaraq imtahana qədərki dövr tamamilə səmərəli keçib. Eyni zamanda situasiyaya uyğun olaraq bacarıq suallarının sayının azaldılması da nəticəyə müsbət təsir göstərib. Ona görə də dövlət imtahanları ilə bağlı ciddi problemimiz yoxdur, tələbələrin böyük əksəriyyəti maksimum bal toplayır".

Bundan sonra müxtəlif istiqamətlər üzrə bacarıqların yoxlanıldığı kabinetlərə daxil oluruq. Urologiya kafedrasının assistenti Anar Əhədov tələbələrin "Sidik kisəsinin kateterizasiyası və kateterin xaric edilməsi" bacarığını yoxlayır. Sonuncu kurs tələbəsi Leyla Nadirli bu bacarığı mulyaj üzərində qüsursuz yerinə yetirərək, maksimum - 10 bal qazanır. Müəllimin sözlərinə görə, yüksək göstəricilər ilk növbədə davamlı treninqlərin nəticəsidir.

Başqa bir kabinetdə II Cərrahi xəstəliklər kafedrasının assistenti Rauf Qasımov tələbələrin "Dəriyə tikişlərin qoyulması və sökülməsi" vərdişini qiymətləndirir. Tələbə 4 dəqiqə ərzində iynəni saplamalı və maneken üzərində yaraya tikiş qoymalıdır. Bizim yanımızda bu prosesi yerinə yetirən tələbə 9 bal toplaya bildi.

Tələbələr kabinetdən kabinetə keçdikcə, topladıqları ballar da artırdı. Maksimum 50 balın qazanılması 5 bacarığın hər birindən 10 bal toplamaqla mümkün idi. Tələbələr Ümumi cərrahiyyə kafedrasının dosenti Alim Məmmədovun sınağından da müvəffəqiyyətlə çıxırdılar. Belə ki, yuxarı ətrafa spiral sarğının qoyulmasında çətinlik çəkmirdilər. Eləcə də vərdişi yerinə yetirərkən bütün suallara düzgün cavab verirdilər.

Ümumi cərrahiyyə kafedrasının dosenti Cümşüd Cümşüdov kompüter tomoqrafiyasında cərrahi patologiyanın olub-olmamasını tələbənin necə müəyyən etdiyini yoxlayırdı. Həmçinin orqanların yerlərinin göstərilməsi, diaqnostika məsələləri də bacarıq imtahanında öz əksini tapmışdı.

Bacarıq imtahanının başqa bir mərhələsində tələbələr uşaqlarda bud-çanaq oynağının anadangəlmə inkişaf qüsurlarının 4 əsas əlamətini müəyyən etməli və həmin əlamətləri biri-birindən fərqləndirməyi bacarmalıydılar. Uşaq cərrahiyyəsi kafedrasının assistenti Müşfiq Bağırov tələbələrin bu sınaqdan da uğurla çıxdıqlarını, nəzəri biliklərini praktiki vərdişləri ilə təsdiqlədiklərini söyləyir.

İmtahandan çıxan sonuncu kurs tələbələri Samirə Aslanova və Mirsaleh Zülfüqarov çox məmnun görünürdülər. Çünki bacarıqlarına obyektiv qiymət verildiyi üçün topladıqları baldan razı qalmışdılar.

İmtahanlar hələ öz axarı ilə davam edir. Biz isə bilik və bacarıq imtahanından uğurla çıxan tələbələrə həyat imtahanında da uğurlar arzulayaraq sağollaşırıq.





# Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib

**Universitetin ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup əməkdaşa Fəxri fərmanlar və pul mükafatları təqdim olunub**

**17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə Azərbaycan Tibb Universitetində tədbir keçirilib. Tədbiri giriş sözü ilə ATU-nun rektoru, professor Gəray Gəraybəyli açıb.**

Bayramla əlaqədar təbriklərini çatdıran rektor xatırladıb ki, 1918-ci il iyunun 17-də Səhiyyə Nazirliyinin yaradılması haqda qərar qəbul olunub. Ulu öndər Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli sərəncamına əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur: “Hər il peşə bayramımızı müxtəlif formatlarda qeyd etməyə çalışmışıq. Amma keçən il həyatımızda, ümumiyyətlə tariximizdə qeyri-adi bir il oldu. Artıq ilyarıma yaxındır ki, davam edən COVID-19 pandemiyası istər ölkəmizdə, istərsə də dünyada həyatın hər bir sahəsinə ciddi təsir göstərib. O cümlədən də tədris prosesinə. Təsadüfi deyil ki, məhz həkimlər, tibb işçiləri bu ağır mübarizəyə ön cəbhədən qoşularaq, böyük fədakarlıq göstəriblər. Və bu gün deyə bilərik ki, ölkəmiz bu çətin dövrdən az itkilərlə çıxmağı bacarıb, vaksinasiya prosesi baxımından regionda ön yerdədir”.

Professor Gəray Gəraybəyli Ermənistanın hərbi təcavüzü nəticəsində 30 il işğalda olan torpaqlarımızın azad edildiyi 44 günlük Vətən müharibəsinə xüsusi toxunub, ATU-nun çoxlu sayda əməkdaşının bu şərəfli tarixdə imzası olduğunu vurğulayıb.

Rektor bildirib ki, bu gün, həmçinin Səhiyyə Nazirliyinin kollegiyası keçirilib. O, səhiyyə naziri vəzifəsini icra edən Teymur Musayevin ATU-nun kollektivinə təbrik və salamlarını çatdırıb: “Teymur Musayev ATU-nun ölkədə istər tibb tədrisi, istərsə də öz klinikaları ilə vətəndaşların sağlamlığının keşiyində dayanması ilə səhiyyəmizin ümumi inkişafında böyük rol oynadığını vurğuladı, yeni-yeni uğurlar dilədi.

Bildiyiniz kimi, universitetimizin 90 illik yubileyi ötən ilə təsadüf edti. Təəssüf hissi ilə qeyd edirəm ki, əvvəlcədən planlaşdırılan tədbirlərin məlum səbəblərdən yalnız kiçik bir hissəsini, özü də onlayn həyata keçirə bildik. Yubileyimiz münasibəti ilə ölkə rəhbərliyi tərəfindən 21 nəfər, Səhiyyə Nazirliyi tərəfindən isə 20 nəfər əməkdaşımız təltif olundu”.

Sonra rektor G.Gəraybəylinin əmri ilə universitetin ictimai-siyasi həyatında fəal iştirak edən, o cümlədən pandemiya ilə mübarizədə və Vətən mühaibəsində ön sıralarda olan bir qrup əməkdaşa Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə Fəxri fərman və 300 manat məbləğində pul mükafatı təqdim olunub.

Mükafatlandırılan əməkdaşlarımız bunlardır:

**Həsənov Ədalət Bəybala oğlu**
- Patoloji anatomiya kafedrasının müdiri, professor;

**Sultanova Məlahət Cahangir qızı**
- Şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri, professor;

**Qasımov Eldar Köçəri oğlu**
- Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor;

**Novruzov Elşad Mirzəli oğlu**
- I müalicə-profilaktika fakültəsinin dekanı, Dermatovenerologiya kafedrasının dosenti;

**Məhərrəmbəyli İsrayıl Şəmşad oğlu**
- II müalicə-profilaktika fakültəsinin dekanı, Anesteziologiya və reanimatologiya kafedrasının dosenti;

**Ağayev Anar Əzəm oğlu**
- İctimai səhiyyə fakültəsinin dekanı, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru;

**Əhmədov Səid İlham oğlu**
- Stomatologiya fakültəsinin dekanı, Ortopedik stomatologiya kafedrasının dosenti;

**Yaqubov Kamandar Mehdi oğlu**
- Əczaçılıq fakültəsinin dekanı, Farmakologiya kafedrasının dosenti;

**Əhmədov Qorxmaz Xamis oğlu**
- Xarici tələbələrlə iş üzrə dekanlığın dekanı, III cərrahi xəstəliklər kafedrasının dosenti;

**Əliyev Mehman Həbib oğlu**
- Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru;

**Əliyev Sərdar Hicran oğlu**
- Patoloji fiziologiya kafedrasının; dosenti

**Süleymanova Leyla Məhərrəm qızı**
- Tibbi biologiya və genetika kafedrasının dosenti, tədris işləri üzrə müdir müavini;

**Namazov Anar Elxan oğlu**
- I Cərrahi xəstəliklər kafedrasının baş laborantı, Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsinin müdiri;

**Məmmədzadə Ceyhun Fədail oğlu**
- Rektorun köməkçisi, Psixiatriya kafedrasının assistenti;

**Orucov Müşfiq Teyyub oğlu**
- Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrasının dosenti;

**Ələkbərova Nigar Rafiq qızı**
- Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini, İctimai fənlər kafedrasının baş müəllimi;

**Əlizadə Elçin Telman oğlu**
- Təsərrüfat və təchizat şöbəsinin müdiri;

**Əsədova Sevil Quluşovna**
- Elmi-tibbi məlumat, patent, innovasiya və qrantlar şöbəsinin koordinatoru - elm və tibb üzrə;

**Şabanova Şəhla Zakir qızı**
- Tədris Terapevtik Klinikasının Hematologiya kabinetinin həkim-hemotoloqu;

**Tağıyev Bayram Təyyar oğlu**
- Tədris Terapevtik Klinikasının Klinik diaqnostik laboratoriyasının həkim-laborantı;

**Məhərrəmov Şaiq Bəşir oğlu**
- Tədris Terapevtik Klinikasının İnvaziv Radiologiya şöbəsinin tibb qardaşı;

**Mahmudova Zəhra Rafiq qızı**
- Tədris və Təhsildə keyfiyyət təminatı şöbəsini metodisti;

**Tahirova Ulduz Qədir qızı**
- Mərkəzləşdirilmiş mühasibatlığın aparıcı mühasibi;

**Abdullayeva Xeyransa Aydın qızı**
- Kadrlar şöbəsinin müfəttişi;

**Rəhimova Zülfiyyə Həsənağa qızı**
- Kadrlar şöbəsinin kompyuter üzrə operatoru.

Daha sonra ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov çıxış edərək bildirib ki, ATU-nun 90 illik yubileyi münasibətilə 2021-ci il aprelin 26-da Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin Qərarına əsasən, səhiyyə sistemində çoxillik səmərəli və qüsursuz əmək fəaliyyətinə görə 15 nəfər əməkdaş Fəxri fərmanla təltif olunub. Aşağıdakı əməkdaşlara Fəxri fərman və hədiyyələr təqdim edilib:

**Hacıyev Seymur Rafiq oğlu**
- Həmkarlar İttifaqı Komitəsinin sədr müavini;

**Allahverdiyev Mübariz Qasım oğlu**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, rektorun müşaviri;

**Hüseynova Məfkurə Salam qızı**
- Azərbaycan dili kafedrasının dosenti, Həmkarlar İttifaqı Komitəsinin üzvü;

**Atakişizadə Sədrəddin Abdulla oğlu**
- Yoluxucu xəstəliklər kafedrasının dosenti;

**Əsədova Şəfəq Şərif qızı**
- I mamalıq-ginekologiya kafedrasının dosenti, kafedra Həmkarlar Təşkilatının sədri;

**Hacıyeva Səidə Vaqif qızı**
- Tibbi mikrobiologiya və immunologiya kafedrasının baş müəllimi, Həmkarlar İttifaqı Komitəsinin üzvü;

**Məmmədova Sevda Nəsrəddin qızı**
- I uşaq xəstəlikləri kafedrasının assistenti;

**Sadıqova Günel Balarza qızı**
- Kliniki farmakologiya kafedrasının assistenti;

**Hüseynova Şərəf Rafiq qızı**
- Kliniki farmakologiya kafedrasının assistenti;

**Əliyeva Nurlana Vilayət qızı**
- Travmatologiya və ortopediya kafedrasının assistenti, II müalicə-profilaktika fakültə həmkarlar təşkilatının sədri;

**Salmanova Rəna Əliheydər qızı**
- Bioloji kimya kafedrasının baş müəllimi, tədris şöbəsində müdir müavini;

**Məhərrəmov Cavanşir Oqtay oğlu**
- Tədris Terapevtik Klinikasının qəbul və təcili tibbiyardım şöbəsinin müdiri;

**Məmmədov Əlizamin Böyükkişi oğlu**
- Tədris Cərrahiyyə Klinikasının təsərrüfat işləri üzrə direktor müavini;

**Abduləlimov Rəfail Gülməmməd oğlu**
- Plan-iqtisad şöbəsinin müdiri;

**Məmmədov Firdovsi Ələsgər oğlu**
- Mülki Müdafiə Qərargahının rəisi, İnzibati-təsərrüfat hissəsinin Həmkarlar İttifaqı Təşkilatının büro sədri.

# Komandamız Milli Qurtuluş Gününə həsr edilmiş yarışda 2-ci olub

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi 15 iyun Milli Qurtuluş Gününə həsr olunmuş “Nə? Harada? Nə zaman?” intellektual yarışında Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin İntellektual oyunlar klubu II yerə layiq görülüb.**




Həmkarlar İttifaqı Komitəsinin İntellektual oyunlar klubu II yerə layiq görülüb.

Milli Qurtuluş Günü ilə əlaqədar olaraq tədbir iştirakçıları və təşkilatçılar oyundan öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili, intellektual inkişafının təmin olunması və potensialının artırılması məqsədi ilə həyata keçirilən layihədə Bakının 11 ali və orta ixtisas təhsili müəssisəsindən olan komandalar iştirak edib.

Tədbirin açılış mərasimində Gənclər və idman nazirinin müavini İntiqam Babayev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli və Bakı Gənclər Mərkəzinin direktoru Nərgiz Babayeva çıxış edərək, ulu öndər Heydər Əliyevin keçdiyi şərəfli ömür yolundan, onun Azərbaycan gəncliyinin hərtərəfli inkişafı üçün göstərdiyi xüsusi diqqət və qayğıdan, gənclərin intellektual səviyyələrinin yüksəldilməsi və vətənpərvər ruhda tərbiyə olunması sahəsində görülən işlərdən danışıblar.

Maraqlı və bir o qədər də gərgin keçən oyun zamanı Azərbaycan Tibb Universitetinin tələbləri 2-ci yerə yüksələrək öz adlarını qaliblər siyahısına yazdırıblar. Sonda ilk üç yerin sahibi olan komandaların kapitanları və üzvləri diplomlarla təltif olunublar.

ATU THİK İntellektual oyunlar klubunu bu dəfə Rüfət Əzimli (kapitan), Fatimə Quluzadə, Könül Orucova və Zeynəb Abdullayeva təmsil ediblər.

# İlk dəfə olaraq ATU beynəlxalq reytinq qurumunun siyahısında

**Azərbaycan Tibb Universiteti ilk dəfə olaraq beynəlxalq reytinq qurumuna daxil edilib.**

SCImago Institutes Rankings (SIR) — tədqiqat, innovasiya nəticələri və sosial təsirlərinə görə üç fərqli göstəricini özündə birləşdirən akademik və tədqiqat müəssisələrinin təsnifatıdır. 2009-cu ildən bəri nəşr olunan, akademik qurumların qlobal bir reytinqidir.

SIR İspaniyanın bir neçə iri təhsil müəssisəsini özündə birləşdirən və Ali Elmi Tədqiqatlar Şurasının (CSIC) üzvü olan təşkilatdır. SIR elmi nəşrlərin və müəssisələrin digər məhsullarının ümumi statistikasını araşdırır və müxtəlif ölçülü qurumlar arasında müqayisə aparır.

Azərbaycan Tibb Universiteti, dünyanın digər universitetləri kimi, bu reytinq sisteminə daxil edilib və 4 göstəriciyə görə indeksləşdirilib: ümumi, elmi tədqiqat, innovasiya və ictimai göstərici. Scimago sıralamasına görə, Azərbaycan Tibb Universiteti 2021-ci ildə ümumi göstəriciyə görə dünyanın 7533 universiteti arasında 899-cu yerdədir. Tədqiqat göstəricilərinə görə, ATU-nun reytinqi 529-dan 517-ci yerə yüksəlib ki, bu da universitetimizin əməkdaşları tərəfindən Web of Science, Scopus və s. nəşriyyat bazalarına daxil olan jurnallarda çap olunmuş məqalələrin sayının artması ilə əlaqədardır.

İnnovasiya və sosiallaşma göstəricilərinə gəldikdə isə, təəssüf ki, reytinq düşüb və 2021-ci ildə ATU müvafiq olaraq 547 və 251-ci yerləri tutub. Dünya tibb müəssisələri arasında Azərbaycan Tibb Universiteti 920-ci, Şərqi Avropada 170-ci, Azərbaycanda isə 1-ci yeri tutur.

ATU-nun əməkdaşları son iki ildə Scopusa daxil olan 32 elmi jurnalda elmi işlərini çap etdiriblər. Bu jurnallardan bir neçəsini misal gətirə bilərik: Psycho-Oncology, Medicine and Low, Annals of Oncology, Journal of Medical Virology, Antiviral Research, Chemistry of Natural Compounds və s.

Beləliklə, Azərbaycan Tibb Universiteti Scimago reytinq sistemində tədqiqat göstəricilərinə görə, dünya və yerli universitetlər arasında layiqli yer tutur və hazırda bu reytinq sistemi üzrə digər göstəricilərin yaxşılaşdırılması, eləcə də ATU-nun QS World University Ranking, Times Higher Education University Ranking, World University of Academic Ranking (ARWU) reytinqlərinə daxil edilməsi istiqamətində işlər aparılır.



# Bölüşməyə təəssüratları,

## Universitetimizin məzunları bu gündən sabaha bilikli,

**İnsan həyatını mərhələlərə ayırsaq, onun ən qaynar, ən zəngin və ən unudulmaz anları, şübhəsiz ki, gəncliyin payına düşər. Gəncliyində tələbə olmağın sevinci, qüruru isə bir başqadır. O mehriban, o əziz tələbəlik illəri yada düşəndə, kimin ürəyinin telləri sızlamır ki?! Əslində bu sızıltı hansısa kədərin ifadəsi deyil, bir də geri dönməyəcək illərin həsrət səsidir. Həyatın acılı-şirinli daha bir mərhələsindən uğurla keçən insanların o illər üçün darıxmasıdır. Tələbəlik dövründə təkcə təhsil almırsan axı, həm də bir həyat məktəbi keçirsən. Ona görə tələbəlik həyatından ayrılmaq da çətin olur.**

**Tələbələr uzun illər onlara dərs deyən müəllimlərindən, dostluq etdikləri tələbə yoldaşlarından ayrılarkən, sevinclə kədərin qarışığından doğan hisslərlə baş-başa qalırlar. Azərbaycan Tibb Universitetində hər il düzənlənən ənənəvi "Məzun günü" görüşlərində biz bunun dəfələrlə şahidi olmuşuq. Artıq 2-ci ildir ki, pandemiya səbəbindən universitetimizdə bayram tədbiri keçirilmir. Ancaq canlı görüşlər məhdudlaşsa da, böyük tərkibdə tədbirlər keçirilməsə də, hisslər həmin hisslərdir. Yəni yenə də deməyə ürək sözləri, bölüşməyə təəssüratlar var...**

**Elşad Novruzov,**
**I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent:**



- 2020/2021-ci tədris ilinin yaz semestrində I Müalicə-profilaktika fakültəsində tədris I və II kurslarda onlayn, III kursda hibrid, IV, V və VI kurslarda isə ənənəvi qaydada aparılıb. Kurslar üzrə tədrisin müxtəlifliyinə baxmayaraq, hər bir kursda tələbələrin pandemiya ilə əlaqəli əvvəlki 2 semestrdən fərqli olaraq imtahan qabağı balları (sərbəst iş, kollokvium və davamiyyət balı) qiymətləndirilib. Bu isə tələbələrin bilik və bacarığının obyektiv qiymətləndirilməsində mühüm rol oynayıb.

Fakültəmizin buraxılış kursunda 318 tələbə təhsil alır. Onlardan 296 nəfərin 250-si Azərbaycan bölməsinin, 46-sı isə rus bölməsinin payına düşür. Tələbələrimiz semestr imtahanlarını müvəffəqiyyətlə verdikləri üçün Dövlət imtahanlarına buraxılıblar. Əvvəlki illərdən tələbə kontingentində saxlanılan 20 tələbədən 8-i normativ təhsil müddətində tələb olunan kreditləri tam topladıqları üçün onlar da Dövlət imtahanlarında iştirak edəcəklər. Ümumilikdə fakültə üzrə diplom almağa namizəd tələbələrimizin sayı 304 nəfərdir, 68 tələbimiz isə qırmızı diplom almaq şansına sahibdir.

**Sahilə Yüzbaşova,**
**I Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi:**

— İnsan orqanizminin quruluşunu öyrənmək mənim üçün həmişə maraqlı olub. Bu istək özümü tanıyandan məni həkim peşəsinə daha da yaxınlaşdırıb. Orta məktəbdə müəllimlərim böyüyəndə kim olmaq istədiyimi soruşanda, həmişə eyni cavabı verir, həkim olacağımı deyirdim. Böyüdükcə mənə elə gəlirdi ki, sanki həkim olmaq üçün doğulmuşam. Həmişə insanlara şəfa vermək, onlara sağlamlıq bəxş etmək keçib könlümdən.



Universitetə hazırlaşanda isə çox çalışırdım. Doğrusu, nə gizlədim, bəzən çox hazırlaşdığımdan dolayı gileylənirdim də. Valideynlərim deyirdi ki, sonra hər şey rahat olacaq, elə çətinlik çəkməyəcəksən. Əziyyətim hədər getmədi, qəbul olundum. Amma gördüm ki, əksinə, universitetdə rahat durmaq yox, daha çox oxumaq, daha çox çalışmaq lazımdır. İndiyədək nə öyrənmişəmsə, universitetə və müəllimlərimə borcluyam. Təhsil aldığım müddətdə yeni dil – alman dili öyrəndim. Əhatəm genişləndi. Savadlı və təcrübəli həkimləri, müəllimləri tanıdım. Uroloq həkim Akif Bağırova olduqca minnətdaram. O, məni özü ilə əməliyyatlara aparırdı. Uroloq olmaq istəmirdim. Onun sayəsində urologiyaya marağım artdı. Universitetdə Akif müəllimdən başqa da çox sevdiyim müəllimlərim olub. Onlardan Elşad Novruzov, Solmaz İmanova, Kamandar Yaqubov, Nigar Mikayılovanın adlarını çəkə bilərəm. Mənim üçün 6 il dərs aldığım müəllimlərdən və bir yerdə oxuduğum qrup yoldaşlarımdan ayrılmaq çox çətindir. Universiteti bitirdikdən sonra çalışacağam ki, dostlarımla əlaqə saxlayım. Təhsilimi isə Almaniyada davam etdirmək niyyətindəyəm. Sentyabrda rezidenturaya qəbul üçün keçiriləcək imtahanlara hazırlaşıram.

**İsrail Məhərrəmbəyli,**
**II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent:**



— Hazırda bizim VI kurslar üzrə imtahanlarımız yekunlaşıb. Fakültəmizi ümumi bitirənlərin sayı 340 nəfərdir. Onlardan 307-si Azərbaycan, 33-ü isə ingilis bölməsinin tələbələridir. Ümumilikdə fakültəmizi 81 nəfərin fərqlənmə ilə bitirəcəyi gözlənilir. Tələbələrimizin əksəriyyəti yüksək nəticələr göstərib, onlar arasında kəsiri olan qeydə alınmayıb. Bu və ya digər səbəbdən imtahanda iştirak etməyən tələbələrə əlavə günlər müəyyən edilib, onlar imtahanları uğurla veriblər.

Qeyd edim ki, onlayn dərslər başlayan zaman tələbələr arasında tərəddüdlər var idi. Bir qrup tələbə onlayn dərslərin keçirilməsinin əleyhinə idi, ənənəvi dərslərə üstünlük verirdi. Bu semestr tədris həm onlayn, həm də ənənəvi qaydada aparıldı. Kafedralarda çalışırdılar ki, tələbələr xəstələrlə daha çox işləsinlər. Tələbələr praktik təcrübənin artırılması üçün xəstələrlə işləyib, onların anesteziyaya hazırlanmasında iştirak ediblər. Bəzi kafedralarda isə xəstə nümayişi olub.

Tələbələr Ümumi cərrahlıq, Patoloji anatomiya, Patoloji fizika və Travmatologia kafedralarının müəllimlərindən razılıq ediblər. Onlar tədrisdən və müəllimlərin davranışlarından məmnundurlar.

**Fidan Bəylərova,**
**II Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi:**



— Universitet mənə tibbi bilik verməklə yanaşı, bir şəxsiyyət və insan kimi yetişməyimə təkan verdi. Böyük həyat təcrübəsi, çox dəyərli müəllimlər və dostlar qazandırdı. Universitetdə bir çox ictimai vəzifələr icra etmişəm. Əsas məqsəd tələbələrin problemlərini rəhbərliyə çatdırmaq olub. Problemlərdən həll etdiklərim də, həll edə bilmədiklərim də olub. Kiməsə motivasiya verməmişəmsə, elmi istiqamətə yönləndirə və yol göstərə bilməmişəmsə, eləcə də aşağı kursun tələbələri hörmətimi saxlayırsa, görünür, nə isə edə bilmişəm. Tələbələrimiz etdiklərimdən faydalana bilib. Oxuduğum müddətdə yaxın olduğum, münasibət saxladığım müəllimlərim olub. Onlardan İsrail Məhərrəmbəyli, Mahir Quliyev, Kamandar Yaqubov, Arzu Bəydəmirova, Nərmin Bayramovanın adlarını çəkə bilərəm. Hər biri mənim üçün bir örnək idi.

Heç zaman mənə dərs deyən müəllimlərimi unutmayacağam. Rezidentura təhsilimi isə həm ölkəmizdə, həm də Avropada davam etdirmək arzusundayam.

**Səid Əhmədov,**
**Stomatologiya fakültəsinin dekanı, dosent:**



— Fakültəmizin sonuncu kursunda 182 tələbə oxuyur. Onlardan 102-si Azərbaycan, 80-i isə əcnəbi vətəndaşdır. Azərbaycan vətəndaşlarından 100 nəfər, əcnəbi vətəndaşlardan 67 nəfər məzunluğa namizəddir. Bundan başqa, tələbə adını saxlayan kontingent də var. Onlar 2-si Azərbaycan vətəndaşı, 12-si əcnəbi vətəndaş olmaqla 14 nəfərdir. Həmin kontingentdən 1 Azərbaycan və 7 əcnəbi vətəndaş da bu il universiteti bitirəcək. Beləliklə, universiteti bitirən tələbələrin sayı 175 nəfərdir. Bilirsiniz ki, bu il müəyyən çətinliklərimiz olub. Tələbələr hibrid sistemdə oxuyublar. Xarici vətəndaşlar fakültəmizdə həm Azərbaycan, həm də ingilis bölməsində təhsil alırlar. Biz onları birləşdirdik, hazırda dərsləri distant keçirlər. Yerli tələbələrlə isə kliniki fənlər ənənəvi qaydada aparılır.

Bir məqamı vurğulayım ki, adətən tələbələrin gözümüzün önündə olmasına, problemlərini yerindəcə həll etməyə öyrəşmişik. Distant təhsil bu mənada işimizi bir az çətinləşdirsə də, yenə imkan daxilində köməyimizi əsirgəmirik. Çalışırıq ki, tələbələrimiz bizdən narazı qalmasınlar. Simpoziumlarda, konfranslarda öz məzunlarımızla görüşürük. Məmnunluqla deyə bilərəm ki, tələbələrimiz etimadı doğruldurlar. Onların intellekti, hazırlıq səviyyəsi, bacarığı bizi sevindirir. Stomatologiya elə sahədir ki, hər gün yeniliklər ortaya çıxır. Azərbaycanda yaşayan tələbələrimizin V kursdan özəl klinikalarda çalışması da müsbət haldır. Məzun adına layiq görülən tələbələrimizi bir daha təbrik edir, gələcək fəaliyyətlərində nailiyyətlər diləyirik.

**Aytac Quliyeva,**
**Stomatologiya fakültəsinin V kurs tələbəsi:**



— Xəyallarımın arxasınca getdim və 2016-cı ildə ölkəmizin ən prestijli, öndə gedən universitetlərindən biri olan Azərbaycan Tibb Universitetinə Prezident təqaüdçüsü kimi qəbul olundum.

Həkimlik xəyallarıma burada qovuşdum. Uşaqlıqdan beynimdə formalaşdırdığım bu gözəl sənətin çətinliklərini də elə burada anladım. Amma nə qədər məsuliyyətli bir sənət olsa da, düşdüyüm mühit, bir üzvünə çevrildiyim kollektiv necə düzgün bir peşə seçdiyimə məni bir daha inandırdı. Öz peşəmi çox sevdiyim üçün geridə qoyduğum 5 ilin bütün çətinliklərindən layiqincə keçdim. Öyrəndim ki, həkim olmaq yaradıcı olmaq, səbrli olmaq, iradəli olmaq deməkdir. Mənə hər işimdə dəstək olan dekanımız Səid müəllimin və digər müəllimlərimin sayəsində gözəl bir gələcək və karyera quracağıma əminəm. Ona görə də bütün müəllimlərimə sonsuz təşəkkürümü bildirirəm.

Azərbaycan Tibb Universiteti həyatımın bir hissəsində heç vaxt unutmayacağım xatirə olaraq qalacaq.

**Anar Ağayev,**
**İctimai səhiyyə fakültəsinin dekanı, professor:**



— Öncə nəzərinizə çatdırım ki, İctimai səhiyyə fakültəsində VI kurs üzrə cəmi 75 tələbə təhsil alır. Onlardan 70 nəfər məzun, 5 nəfər akademik borca görə kursda qalandır. Fərqlənmə diplomuna namizəd olanların sayı 7 nəfər, müxtəlif illərdə kontingentdə qalan tələbələrin sayı isə 10 nəfərdir.

İctimai səhiyyə fakültəsinin istər ictimai səhiyyə, istər tibb bacısı, istərsə də yeni yaradılan fizioterapist ixtisaslarına yiyələnən tələbələri haqqında təəssüratlarımız çox yüksəkdir. Onlara dərs keçən müəllimlərin apardığı gündəlik sorğular zamanı üzə çıxan nəticələr, eyni zamanda müxtəlif mövzulara dair peşəkarlıqla hazırlanan təqdimatlar bizim bu qənaətə gəlməyimizə əsas verir. Məzun olacaq tələbələrimizin gələcəkdə, sözün həqiqi mənasında, öz sahələri üzrə kifayət qədər təcrübəli mütəxəssis kimi formalaşacaqlarına inanırıq. Bu nöqteyi-nəzərdən tələbələrimizə dərs deyən fənn müəllimlərinə, həmçinin həm əyani, həm də onlayn dərslər üçün yaratdığı əlverişli şəraitə görə universitet rəhbərliyinə fakültə dekanlığı və tələbələrimiz adından təşəkkürümü bildirirəm. Ümid edirəm ki, tibbi profilaktika ixtisasını bitirən hazırkı məzunlarımız səhiyyənin idarə olunması, təşkili, ictimai sağlamlığın qorunması istiqamətində cəmiyyətin xidmətində layiqincə durmağı bacaracaqlar. Onu da diqqətinizə çatdırım ki, İctimai səhiyyə fakültəsi davamlı tədrislə yanaşı, universitetimizin ictimai həyatında da həmişə xüsusi fəallıq göstərib. Təsadüfi deyil ki, universitet tədbirlərinin aparıcıları da əksər hallarda İctimai səhiyyə fakültəsinin tələbələri olub.

# deməyə ürək sözləri var…

## özünəinamlı və məqsədyönlü gənclər kimi addımlayırlar

Fakültəmizdə tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi işinə də hər zaman diqqət ayırmışıq. Buna misal olaraq, "Capacity building" klubunun fəaliyyətini xüsusi qeyd edərdim. Bu klubda ictimai səhiyyə sahəsində müəyyən mövqe tutan şəxslərlə mütəmadi görüşlər təşkil olunur.

Biz tələbələrimizin təhsil illərində qazandıqları nəzəri biliklərdən müstəqil fəaliyyətlərində bəhrələnəcəklərinə əminik və onlara həyatda uğurlar arzulayırıq.

**Çinar Salmanlı,**
**İctimai səhiyyə fakültəsinin VI kurs tələbəsi:**

— Həkim olmaq mənim uşaqlıq arzum idi. Bir qədər qəribə səslənsə də, hələ ibtidai siniflərdə oxuyarkən bu qərara gəlmişdim. Öz aləmimdə insanların xəstəliklərini müalicə edərək onları sağaltmağımın xəyalını qururdum. Elə bu arzu ilə də sənədlərimi IV qrupa verdim və yığdığım bala görə ATU-nun İctimai səhiyyə fakültəsinə qəbul olundum. Qəbul sevincimin davamını tələbəlik illərində də yaşadım. Burada gözəl dostlar tapdım. Əminəm ki, indiki tələbə dostlarım bundan sonra da bir kolleqa kimi yanımda olacaqlar.

Həmçinin dekanlığın əməkdaşlarından isti münasibət, xüsusi qayğı gördüm. Dekanımız Anar müəllim, dekan müavini Qalina xanım hər zaman mənə doğru yol göstəriblər. Yeri gələndə onlarla şəxsi problemlərimlə bağlı da məsləhətləşə bilirəm.



Universitetdə keçdiyim hər dərsin bir özəlliyi vardı. I kursda Anatomiya dərsləri mənə daha maraqlı gəlirdi. Meyitlər üzərində təcrübə aparmağımızın həyəcanını indiyədək unutmamışam. Mahir müəllimin Histologiya kafedrasında bizi ilk dəfə mikroskopla tanış etməsini də yaxşı xatırlayıram. O bizə mikroskopla necə davranmağı, həkim olmağın sirlərini öyrətməyə başlamışdı.

Yuxarı kurslara keçdikcə, yeni informasiyalar alırdıq. Qəribə xanımın rəhbərliyi altında VI kursda Qida Təhlükəsizliyi İnstitutunda yüksək səviyyədə təcrübə keçdik.

Buraxılış ərəfəsində qarışıq hisslər keçirirəm. Gələcəyimin başlanğıcındayam. Dəyərli dostlarımdan, müəllimlərimdən, qrup yoldaşlarımdan ayrılmaq çox çətindir. Ona görə də çalışırıq ki, bir yerdə vaxt keçirək, qrup olaraq əylənək və şəkillər çəkək. Eyni zamanda müəllimlərimizlə daha tez-tez görüşmək istəyirik. Əminəm ki, yayda pandemiya şəraitinə uyğun məzun günü keçirə biləcəyik ki, xoş xatirə olaraq yaddaşımızda qalsın. Mən çox xoşbəxtəm ki, Azərbaycan Tibb Universitetinin tələbəsi olmuşam. Sonrakı illərdə də nüfuzlu bir universitetin məzunu kimi qürur duyacam.

**Kamandar Yaqubov,**
**Əczaçılıq fakültəsinin dekanı, dosent:**



— Əczaçılıq fakültəsini 2020–2021-ci tədris ilində 132 tələbə bitirməlidi. Onlardan 70 nəfər Azərbaycan vətəndaşı, 62 nəfər isə əcnəbi vətəndaşdır. 132 tələbədən 6 qrupda 74 nəfər Azərbaycan bölməsində, 2 qrupda 16 nəfər rus bölməsində, 4 qrupda 42 nəfər isə ingilis bölməsində təhsil alır. Məzun ola bilməyən 10 tələbəmiz bu il kredit borclarına görə dövlət attestasiyasına buraxılmır. Lakin həmin 10 nəfərdən ingilis bölməsində olan tələbələrin (6 nəfər) gələn il də universiteti bitirmək şansları saxlanılır. Onlar borc qalıqlarını 1-ci və 2-ci semestrdə düzgün paylaşsalar, 2022-ci ildə məzun ola bilərlər.Məlumdur ki, 2020–2021-ci tədris ili pandemiya şəraitində başladı. Fakültəmizin bütün kurslarında tədris hər iki semestrdə onlayn formatda aparıldı. Bu da istənilən halda tədrisin keyfiyyətinə öz mənfi təsirini göstərdi. Ancaq buna baxmayaraq, tələbələrimizin hazırlıq vəziyyətini yaxşılaşdırmaq məqsədilə fərqli tədbirlərimiz, səmərəli görüşlərimiz oldu. Azərbaycan və Türkiyə universitetləri arasında müvafiq anlaşmalara görə, tələbələrimiz onlayn olaraq Ankara, Qazi, Səlcuq universitetlərinin dərslərinə qoşulmaq imkanı əldə etdilər.

Onu da deyim ki, peşə bacarıqlarını artırmaq üçün 4 il bakalavr pilləsində təhsil alan tələbələrimizin III kursdan etibarən əczaçılıq sənayesinin müxtəlif sahələrində işlə təmin edilməsinə şərait yaradırıq. Artıq həmin dövrdən başlayaraq, Azərbaycan vətəndaşı olan tələbələrimizin 70–80 faizi apteklərdə işləməklə öz xərclərini qarşılaya bilirlər. Axır vaxtlar iş yerləri daha rəngarəngdir, təkcə apteklərlə məhdudlaşmır. Əczaçı kadrlara dopinq, analitik ekspertiza laboratoriyaları, dərman zavodları və Qida Təhlükəsizliyi Agentliyində yeni iş yerləri təklif olunur. Ümid edirəm ki, diplom aldıqdan sonra cəlbedici iş yerləri tapmaq imkanları bir qədər də genişlənən məzunlarımız səhiyyə sistemində söz sahibi olacaqlar.

**Qəmər Məmmədbəyli,**
**Əczaçılıq fakültəsinin IV kurs tələbəsi:**

— Tibb sahəsini seçməyimin əsas səbəbi valideynlərimdir. Babalarım, atam, dayım, əmim, xalalarım həkim, anam isə bioloqdur. Ailəmin məsləhəti və öz istəyimlə əczaçılığı seçdim. Nə xoş ki, tələbəlik illəri həyatımda unudulmaz izlər buraxdı. Tələbəliyimin əvvəllərində dekanımız Kamandar müəllimin dəstəyi, Fakültə Tələbə Elmi Cəmiyyətinin rəhbəri, dosent Nərgiz Məmmədovanın rəhbərliyi ilə xaricdə bir sıra beynəlxalq konfrans və sammitlərdə universitetimizi təmsil etdim. Əczaçılıq elmində baş verən yeniliklər və nailiyyətlərlə tanış oldum. Sonralar III Beynəlxalq Ümumrusiya Universitetlərarası sammitdə "Qış yaxınlaşır" işgüzar oyununda qalib gəldik.




Komanda yoldaşlarımızla birlikdə "Palliativ +" layihəsini də ərsəyə gətirdik. Onu təkmilləşdirəndən, bir neçə mərhələdən keçirəndən sonra respublika finalında iştirak etdik. Bu yarışmada 153 komanda arasında III yeri tutmağı bacardıq. Hörmətli rektorumuzun bizi qəbul etməsi və qələbəmizi qiymətləndirməsi hər birimizi qürurlandırdı.

İndi müəllimlərimdən xoş xatirələrlə ayrılıram. Çox şanslıyam ki, mənə dərs deyən müəllimlərin əksəriyyəti tədrisin təşkilində yeni texnologiyalardan istifadə etməyi bacaran, tələbələri praktiki fəaliyyətə, elmi tədqiqat işinə həvəsləndirən müəllimlərdir.
Bunun nəticəsi idi ki, I kursdan dosent Gültəkin Acalovanın rəhbərliyi altında elmi iş götürdüm. Başqa bir uğurlu layihəm professor Məhbubə Vəliyevanın rəhbərliyi altında kosmetoloji müalicəvi kremin işlənib hazırlanmasıdır.

Dekanlıq əməkdaşlarının qayğıkeşliyindən, tələbələrlə mehriban ünsiyyətindən də razıyam. Məzun günümüz pandemiya dövrünə düşsə də, qrup yoldaşlarımla sıx əlaqə saxlamağı planlaşdırıram. İnanıram ki, Azərbaycan Tibb Universiteti gələcəkdə də böyük uğurlara imza atacaq və biz belə bir universitetin məzunu olduğumuza görə fəxr edəcəyik.

**Çingiz Əlləzov,**
**Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki:**



— Hərbi tibb fakültəsini 2020/2021-ci tədris ilində 71 həkim, 20 feldşer bitirir. Həkimlərdən 17-si Ədliyyə Nazirliyi, 54 həkim və feldşer isə Silahlı Qüvvələrdə xidmətə göndəriləcək. Həkimlərə tibb xidməti leytenantı, feldşerlərə isə gizir rütbəsi veriləcək. Onlardan əla qiymətlərlə oxuyub, yüksək bal toplayan 6 nəfər təyinat seçimində sərbəst olacaq.

Pandemiya hər sahəyə təsir etdiyi kimi, bizə də təsirsiz ötüşmədi. Onlayn tədrislə ənənəvi tədrisin keyfiyyəti arasında fərq istər-istəməz özünü göstərdi. Amma biz kafedralarımızda ənənəvi qaydada tədrisi davam etdirdik. Bunun da müsbət nəticəsini gördük. Və bu gün xidmətə göndərdiyimiz kadrların bilik və hərbi hazırlıq səviyyələri məni qane edir. Onların hər birinə hərbçilərimizin sağlamlığını etibar etmək olar.

**Əmin Hüseynli,**
**Hərbi tibb fakültəsinin müdavimi:**



— Ailəmizdə həkim olmasa da, bu peşəni çox sevirdim. Böyüyəndə həkim olmaq istəyirdim. Yaşım artdıqca, məndə vətənpərvərlik hissləri baş qaldırdıqca, fikrimdə də dəyişiklik etməli oldum. Torpaqlarımızı işğalçılardan azad etmək üçün hərbçi olmaq niyyətinə düşdüm. Azərbaycan Tibb Universitetində belə bir fakültənin olduğunu biləndə ağlıma gəldi ki, iki arzumu reallaşdıran bir məkan tapmışam. Ona görə tərəddüd etmədən bu fakültəyə daxil olmaq üçün hazırlaşdım və qəbul oldum. Tibb Universiteti arzularımın reallaşdığı bir təhsil ocağı olduğu üçün mən buranı çox sevmişəm. Üstəlik, torpaqlarımızın azad olunmasında mənə şərait yaratdığı üçün universitetə, müəllimlərimə borcluyam. Belə ki, 30 il işğalda qalmış torpaqlarımızın azad olunmasında fakültəmizin bütün tələbələri kimi mən də iştirak etmişəm. Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qələbə çalmasında mənim də payım olmasına görə özümü xoşbəxt sanıram. 44 günlük Vətən müharibəsi başladığı ilk gündən Xocalı xəstəxanasında xidmət göstərmişəm. Müharibə zamanı xəstəxanaya 600-dən çox yaralı daxil oldu. Onlar arasında ağır kəllə-beyin travması alanlar olmasına baxmayaraq, çox şükür ki, heç kəs dünyasını dəyişmədi. Yaralıların tez sağalması üçün əlimdən gələni etdim. Müharibədən bir ömür yaddaşımdan silinməyəcək xatirələrimlə qayıtdım.

Universitet isə mənə gözəl müəllimlər və dostlar qazandırdı. Bu gün vətən övladlarının sağlamlığının bizlərə etibar edilməsindən qürur duyuram. Həmişə yaddaşımda həkk olunacaq müəllimlərimdən isə Tural Hüseynlinin, Fərhad müəllimin, Vasif İsmayılın, Nəsimi müəllimin, Mehman müəllimin, Svetlana və Arzu xanımın adlarını çəkə bilərəm.

**Xəyal Əlizadə,**
**Feldşer:**



— Əvvəllər sənədlərimi Tibb Universitetinə vermək fikrim olmayıb. Arzum Ali Hərbi Məktəbə daxil olmaq idi. Amma müvəffəqiyyət qazana bilmədim. Hərbi xidmətə getdim. Orada mənə Tibb Universitetində feldşer ixtisası üzrə təhsil almağı məsləhət gördülər. Ordudan tərxis olunandan sonra sənədlərimi universitetə verdim və qəbul oldum.

Mən də 44 günlük Vətən müharibəsində Ağdam rayonunda yaralılara xidmət göstərdim. Müharibə dövründə şəhid və ağır yaralılar gördüm. O mənzərələri xatırlamaq mənim üçün olduqca çətindir. Qardaşım Təbriz Əlizadə də Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib, yaralanıb. Bizim ailəmizdə həmişə vətənpərvərlik hissi yüksək olub. Torpaqlarımızın azad olunmasında ailə üzvlərimizin iştirak etməsindən qürur duyuram. Nə yaxşı ki, az da olsa, Vətən qarşısında borcumuzu verə bildik. Xalqımızın qələbə sevincinə bizim də qatqımız oldu.

Universiteti gizir rütbəsi ilə bitirərək təyinatla xidmətə göndəriləcəyəm. Çalışacağam ki, əldə etdiyim bilik və təcrübəni xidmət etdiyim hərbi hissədə hərbçilərimizin sağlamlığı naminə uğurla tətbiq edim.

**Tələbələrlə daim sıx ünsiyyətdə olan fakültə dekanlarının və yaxın gələcəkdə müstəqil həkimlik fəaliyyətinə başlayacaq məzunlarımızdan bir neçəsinin təəssüratlarını paylaşaraq, Azərbaycan Tibb Universitetində 2021-ci il buraxılışının ümumi mənzərəsi haqqında kiçik də olsa, təsəvvür yaratmaq istədik. Bir daha əmin olduq ki, nəsildən-nəslə ötürülən tarixi ənənələr etibarlı əllərdədir. Bir vaxtlar təbabətin rəmzlərini şərti olaraq qəbul edənlər indi estafeti I kurs tələbələrinə verməyə hazırlaşırlar.**

**Bütün məzunlarımıza uğurlar arzulayırıq!**

**Arif MƏMMƏDLİ,**
**Qabil ABDULLAYEV**

Balakişi Hüseynov — 60

# Onun haqqında danışanda, fəxrlə «mənim müəllimim» deyirlər



**O, universitetimizin öz təvazökarlığı və dərin peşəkarlığı ilə seçilən, neçə nəsil həkimlərin haqqında fəxrlə "mənim müəllimim" dediyi əməkdaşlarından biridir. İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Balakişi Məmmədəli oğlu Hüseynovun bu günlərdə 60 yaşı tamam olur.**

O, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Oftalmologiya Elmi-Tədqiqat İnstitutundan başlayaraq, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Müalicə Konsultativ-diaqnostik Cərrahiyyə Mərkəzinə qədər uzanan şərəfli bir yol keçib. Anatomiya elminə marağı onu Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasına gətirib. Burada görkəmli anatom, Əməkdar elm xadimi, akademik Vaqif Şadlinskinin rəhbərliyi və xeyir-duası ilə fəaliyyətə başlayıb, baş laborantlıqdan professorluğa qədər yüksəlib. B.Hüseynov 2003-cü ildə namizədlik, 2011-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edib.

O, Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının FD 2.08 qeydiyyat nömrəli Dissertasiya Şurasının elmi katibi, Azərbaycan Respublikasının Elmi Tədqiqatların Əlaqələndirmə Şurasının, Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin Elmi Şurasının və universitetin Nəzəri Fənlər üzrə Problem Komissiyasının, "Anatom, Embrioloq və Histoloqlar Elmi Cəmiyyəti" İctimai birliyinin idarə heyətinin, Avropa Təbiət Elmləri Akademiyasının, Beynəlxalq Morfoloqlar Assosiasiyasının Koordinasiya Şurasının üzvüdür, "Nəzəri, Klinik və Eksperimental Morfologiya" jurnalının elmi redaktorudur.

Bu qədər məşğulluğuna baxmayaraq, professor hər zaman ona məsləhət üçün müraciət edən gənc həmkarlarına vaxt ayırmağı bacarır. Onun dərsləri klassik təşrih üsullarından istifadə ilə müasir multimedia vasitələrinin orijinal simbiozuna əsaslanır, odur ki, tələbələri Balakişi müəllimim dərslərində vaxtın necə keçdiyini hiss etmirlər. Əldə etdiyi biliklər isə istər semestr, istərsə də rezidentura imtahanlarında tələbələrin köməyinə gəlir; təsadüfi deyil ki, professorun tələbələri ən yüksək ballar əldə edir, onların çoxunun sorağı sonradan Avropanın məşhur klinikalarından və tibb mərkəzlərindən gəlir.

60 yaş alim və müəllim üçün yeni planlar, möhtəşəm elmi proyektlər dövrüdür. İnsan anatomiyası və tibbi terminologiya kafedrası yubileyi münasibətlə professor Balakişi Hüseynovu ürəkdən təbrik edir, ona cansağlığı və şərəfli işində daha da böyük müvəffəqiyyətlər arzulayır.

**Son illərdə Azərbaycan Tibb Universitetinin beynəlxalq nüfuzu xeyli yüksəlib. Sevindirici haldır ki, bütün dünyanı ağuşuna alan COVID-19 pandemiyası dövründə də universitetimiz bu nüfuzu qoruyub saxlaya bildi. Universitetimizin ölkə hüdudlarından kənarda tanınmasında burada təhsil alan əcnəbi vətəndaşların da xüsusi rolu var. Onlar öz ölkələrində ATU haqda müsbət imic formalaşdırıblar.**



# ATU-nun beynəlxalq nüfuzu yüksəlir

## Əcnəbi vətəndaşların universitetimizi seçməsi üçün lazımi işlər aparılır

Bu məqamı nəzərə alan universitet rəhbərliyi xarici tələbələrlə işi daim yüksək səviyyədə qurur. Məhz bu diqqətin nəticəsidir ki, əcnəbi tələbələrin müxtəlif fakültələrdə təhsil almasına baxmayaraq, onlarla daha səmərəli işləmək üçün ayrıca dekanlıq fəaliyyət göstərir. Bu fəaliyyətin əsas istiqamətləri barədə bizi Xarici tələbələrlə iş üzrə dekan, dosent Qorxmaz Əhmədov məlumatlandırır: «Dekanlıq olaraq əcnəbi vətəndaşların Azərbaycan Tibb Universitetinə qəbulu, yerləşdirilməsi ilə bağlı işlərlə məşğuluq. Tədrislə isə müvafiq fakültələr məşğul olur. Son 3-4 ildir fəaliyyət göstərən qəbul portalımız əcnəbi tələbələrin ATU-ya qəbulunun tam şəffaf, çox rahat bir şəkildə aparılmasına imkan yaradır. Tələbələrin qəbulu üçün bir neçə mərhələ var. Birinci və ikinci mərhələ, yəni sənədlərin qəbulu, eləcə də tələbənin skaypla müsahibə üçün Azərbaycana gəlməsinə ehtiyac yoxdur. Skayp vasitəsilə müsahibədən uğurla keçən əcnəbi vətəndaşları son qeydiyyat üçün Bakıya dəvət edirdik. Amma pandemiya ilə əlaqədar indi tədris prosesi və digər işlər də distant formatda həyata keçirilir. Hətta builki hazırlıq kursuna qəbula görə müqavilələrin imzalanması mərhələsini də distant qaydada təşkil etmişik". Dekanın sözlərinə görə, tibb təhsili almaq üçün ən optimal ali təhsil müəssisəsi hesab olunan universitetimizdə 2500-dən çox xarici tələbə oxuyur ki, bu da təxminən Azərbaycanın digər ali məktəblərində təhsil alan əcnəbi tələbələrin ümumi sayı qədərdir.

Q.Əhmədov əcnəbi tələbələrin burada aldıqları tibb təhsilini sonradan öz ölkələrində nümayiş etdirməklə, universitetimizin nüfuzunu bundan sonra da yüksəldəcəklərinə əminliyini bildirib.

Yeri gəlmişkən ilk dəfə olaraq bu günlərdə beynəlxalq reytinq qurumunun siyahısına daxil edilən Azərbaycan Tibb Universiteti Scimago reytinq sistemində tədqiqat göstəricilərinə görə dünya və yerli universitetlər arasında layiqli yer tutur. Hazırda bu reytinq sistemi üzrə digər göstəricilərin yaxşılaşdırılması, eləcə də ATU-nun QS World University Ranking, Times Higher Education University Ranking, World University of Academic Ranking (ARWU) reytinqlərinə daxil edilməsi istiqamətində işlər aparılır.

# Əczaçıların vebinarı keçirilib

## *Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim olunub*




**Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin rəhbərliyi "Mən əczaçıyam" adlı vebinar təşkil edib. Üç gün davam edən vebinarda "Tənzimləyici qurum və təşkilatlarda əczaçının yeri və rolu", "Əczaçıların elmi və praktiki istiqamətləri", "Əczaçılığın müxtəlif istiqamətləri" mövzuları ətrafında aktual məsələlər müzakirə olunub.**

Vebinarı Əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubov açıb. O, ölkəmizdə əczaçılığın yaranması tarixindən, əczaçıların təşkilatlarda yeri və rolundan, bu sahədəki bəzi çatışmazlıqlardan, universitetimizin beynəlxalq reytinqinin ilbəil artmasından və digər məsələlərdən söhbət açıb.

Vebinarda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Tibbi Ərazi Bölmələrinin İdarətmə Birliyinin Dərman və tibbi vasitələr departamentinin rəhbəri Elmin Quliyev, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Keyfiyyəti İdarəetmə şöbəsinin müdiri Rauf Əfəndiyev, Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı İradə Hüseynli, Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzinin baş direktor müavini Rüstəm Rüstəmbəkov, "Vivagrup ARGE və İstehsalat" şirkətinin qurucusu Sevinc Kərimzadə, ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, ATU-nun Biokimiya kafedrasının assistenti, əczaçılıq elmləri üzrə fəlsəfə doktoru Hikmət Məmmədov, ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini, əczaçılıq elmləri üzrə fəlsəfə doktoru Əfsanə Məmmədova, TƏBİB Elmi-Tədqiqat və Təhsil Departamentinin Elmi-tədqiqatların koordinasiyası şöbəsinin müdiri, əczaçılıq elmləri üzrə fəlsəfə doktoru Emil Civişov, Milli Onkologiya Mərkəzinin Nüvə təbabəti şöbəsinin məsul şəxsi Razim Şükürov, "Makromed" LTD-nin Biznesin inkişafı şöbəsinin müdiri Ülviyyə Əzməmmədova, ATU-nun Əczaçılıq kafedrasının doktorantı Aytəkin Qəribli, AMADA-nın Terapevtik istifadə üçün istisna komitəsinin sədr müavini, əczaçılıq elmləri üzrə fəlsəfə doktoru Fərid Əliyev, Hacettepe Universitetinin Farmakoqnoziya kafedrasının assistenti Murat Kutluay, Türkiyənin Sanovel İlaç Sanaye ve Ticaret A.Ş-nin Beynəlxalq tənzimləmə işləri üzrə meneceri Ülkər Quliyeva, Almaniyanın "Bi-aphotheke" şirkətinin mütəxəssisi Bənövşə Mehdiyeva, "Makromed" LTD-nin bBaş direktoru Anar Lətifov və ATU-nun Farmakoqnoziya kafedrasının assistenti Nərmin Babayeva yaddaqalan çıxışlar ediblər.

Geniş diskussiya şəraitində keçən vebinarın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.



# İctimai səhiyyə fakültəsində praktiki bacarıq təlimlərinə start verilib

**Bu günlərdə İctimai səhiyyə fakültəsinin təşkilatçılığı ilə maraqlı təlim keçirilib. Təlimdə səyyar xəstəxanaların qurulması prinsipləri, zərərçəkmiş şəxslərə, o cümlədən avtomobil qəzalarında xəsarət alanlara ilk tibbi yardımın göstərilməsi və digər mövzularda müzakirələr aparılıb.**

Təlimin açılışında çıxış edən fakültənin dekanı, professor Anar Ağayev gələcəyin həkimləri üçün bu mövzuda praktiki bacarıqların böyük əhəmiyyət kəsb etdiyini, bu baxımdan belə treninqlərin vacib olduğunu qeyd edib.

Daha sonra ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dissertantı Qasım Əmrahlı mövzu ilə bağlı bir çox məsələlərdən danışıb. Təlim zamanı tibbi avadanlıqlardan rahat və sərbəst şəkildə istifadə etməklə verilən tapşırıqların dəqiq və düzgün yerinə yetirilməsinə diqqət olunub.

Təlimdə, həmçinin səyyar tibb məntəqələrinin qurulması, ilk tibbi yardım zamanı şəxsi təhlükəsizliyin qorunması prinsipləri, zərərçəkmişin vəziyyətinin düzgün qiymətləndirilməsi və qrup şəklində fəaliyyət növlərinin optimal bölünməsi və ardıcıllığı, avtomobil qəzaları və digər hallarda zərərçəkmiş şəxsin ərazidən uzaqlaşdırılması, rəngli kodların aktivləşdirilməsi kimi məsələlərə diqqət yetirilib.

İctimai səhiyyə üzrə bu cür təlimlərin hər həftə keçirilməsi planlaşdırılır.



# Şoka salan qidalar

## Qida allergenlərinin səbəb olduğu anafilaksiya zamanı ölüm faizi digərlərindən daha yüksəkdir

**Dünya Allergiya və İmmunopatologiya Təşkilatı Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə iyunun 13-dən 19-dək "Dünya allergiya ilə mübarizə həftəsi"nin keçirilməsini tövsiyə edib. Builki "həftə"nin mövzusu anafilaksiya olub.**

Bu barədə qəzetimizə məlumat verən Azərbaycan Allerqologiya, İmmunologiya və İmmunoreabilitasiya Elmi Cəmiyyətinin prezidenti Əməkdar elm xadimi, professor Amaliya Əyyubova bildirib ki, məqsəd əhalinin, tibb işçilərinin, eləcə də allergik xəstəliklərdən əziyyət çəkən insanların bu sindromla yaxından tanış olmaları və belə vəziyyətə düşən insanlara ilk yardımı göstərə bilmələridir.

Professor qeyd edib ki, anafilaksiya – insan həyatı üçün təhlükəli olan, antigen təbiətli maddələrə qarşı orqanizmin sistem hiperhəssaslıq reaksiyasıdır. O, ağır allergik reaksiya olub, orqanizmin bir çox orqan və sistemlərini (tənəffüs, qan-damar, dəri və selikli qişalar və s.) zədələyə, hətta ölümlə nəticələnə bilər.

Bütün növ allergenlər anafilaksiya törədə bilər. Ancaq daha çox qida allergenləri anafilaksiyaya səbəb olur. Ədəbiyyat məlumatlarına görə, 170-dən artıq qida allergeni bu cür reaksiya törədə bilər. Nəzəri baxımdan hər hansı bir qida allergik reaksiyaya səbəb ola bilər. Lakin alimlər göstərir ki, allergiyaya ən çox səbəb olan bu 8 qida məhsuludur: inək südü, yumurta, fıstıq, soya, buğda, qoz, balıq və bal. Bəzən qidanın özü deyil, onun tərkibində olan qeyri-qida maddələri, boyalar (anutrient ksenobiotik) buna səbəb olur. Həşərat dişləməsi ilə müqayisədə qida mənşəli anafilaksiya zamanı ölüm faizi 6-7 % çoxdur.

Klinik təsnifatına görə, anafilaksiya ağırlığından asılı olaraq, 4 dərəcəyə bölünür: Birinci dərəcə anafilaksiyada prosesə bir sistem qoşulur. İkinci dərəcə anafilaksiyada prosesə birdən artıq sistem qoşulur, bu formada həyati təhlükə yaranır. Üçüncü dərəcə anafilaksiyada prosesə bir neçə sistem qoşulur, həyati təhlükə artır. Dördüncü dərəcə anafilaksiya həyat üçün çox təhlükəlidir, letallıqla nəticələnə bilər.

Anafilaksiyanın müalicəsində ilk yardım çox vacibdir. Hər bir həkim, hətta xəstə yaxınları vaxtında, adekvat davranaraq, xəstəni bu vəziyyətdən çıxarmağı bacarmalıdır.

Bütün kliniki tövsiyələrdə anafilaksiyanın müalicəsində təxirəsalınmaz yardım məqsədilə adrenalindən istifadə etmək məsləhətdir. Eyni zamanda antihistamin preparatlar və ehtiyac olarsa, simptomatik preparatlardan istifadə etmək olar.

Qida mənşəli anafilaksiya zamanı vacib addımlardan biri qida rasionundan allergenləri xaric etməkdir. İnək südü zülallarına qarşı allergiyası olan erkən yaşlı uşaqlara hidroliz olunmuş müalicəvi süd qarışıqlarının verilməsi tövsiyə edilir. Südə qarşı allergiya uşaq böyüdükcə azalır. Yumurtaya qarşı allergiya altı yaşdan sonra azalır. Qlütenə qarşı allergiya – seliakiya ömür boyu qalır. Fıstıq, qoz, balıq, dəniz məhsullarına qarşı allergiya uzun müddət davam edir. Profilaktik məqsədlə rasiondan çıxarılmış qidaları 2 ildən sonra tədricən, az porsiya ilə təkrar qidalanmaya əlavə etmək olar.

Qida anafilaksiyasını uzun illər nəzarətdə saxlamaq üçün allergenspesifik immun terapiyasından istifadə etməyi məsləhət görən A.Əyyubova vurğulayıb ki, bütün yeməkxana, kafe, restoran, fast food və s. ictimai obyektlər qida allergiyası anafilaksiya haqda məlumatlı olmalıdır və yerində ilkin yardım göstərilməsi təmin edilməlidir. Çünki burada vaxt faktoru böyük rol oynayır.

Uşaq bağçaları və məktəblərdə allergiyadan əziyyət çəkən uşaqları təyin edib, onları xüsusi nəzarət altında saxlamaq bu müəssisələrin tibb işçilərinin borcudur. Belə uşaqların qidalanmasına, müəyyən dərmanların, peyvəndlərin istifadəsinə ciddi nəzarət olunmalıdır. Bu müəssisələrdə anafilaksiya ilə mübarizə üçün bütün dərmanlar olmalı, tibbi personal adrenalindən istifadə qaydasını bilməlidir.

# Bioloji fəal qida əlavələri: almazdan öncə araşdırın



## Nərgiz Məmmədova: Bu tip məhsulların apteklərdə, superpermarketlərdə satışı sahəsində islahatlar gözlənilir

**Hamımız apteklərdə dərman vasitələri ilə yanaşı, böyük çeşiddə bioloji fəallığa malik qida əlavələrinin (BFMQƏ) də satıldığını müşahidə etmişik. Onlar adətən görünüşcə dərmanlara çox oxşayır, qiymət baxımından isə əksər hallarda daha baha olurlar. Bəs bu məhsullar xəstəlikləri müalicə edirmi? Onlar dərman vasitələrindən nə ilə fərqlənir, istehlakçı bu məhsullar haqqında nələri bilməlidir? Bu və digər suallarla ATU-nun Farmakoqnoziya kafedrasının dosenti Nərgiz Məmmədovaya müraciət etdik.**



**- Bioloji qida əlavələri haqqında nə deyə bilərsiniz? Onların tərkibləri və təyinatı nədir, dərman vasitələrindən nə ilə fərqlənirlər?**

- Siz çox aktual bir mövzuya toxunmusunuz. Bunlar bizim əhali üçün nisbətən yeni məhsullardır. Onlar qida rasionunu zənginləşdirmək məqsədi ilə bitki, heyvan, mineral mənşəli və ya kimyəvi yolla alınmış bioloji fəal maddələr və onların komplekslərinin farmasevtik formada hazırlanaraq, gündəlik qəbuletmə dozası müəyyənləşdirilmiş məhsullardır. Onlara çox vaxtı yanlış olaraq "qida əlavələri" də deyirlər. Halbuki "qida əlavələri" digər kateqoriyalı məhsullara aid olub, qidanın hər hansı xassəsini - uzun müddət saxlamaq üçün, rəngini, dadını, xarici görünüşünü dəyişdirmək məqsədi ilə istifadə edilir və qidanın ümulilikdə insan orqanizminə təsirini dəyişdirmir. BFMQƏ-lərin tərkibinə bir çox maddələr daxil ola bilər: zülallar, karbohidratlar, piyli və efir yağları, vitaminlər, vitaminəbənzər maddələr, probiotiklər, prebiotiklər, fermentlər, bitki və heyvan mənşəli maddələr və s. Onların tərkibində zəhərli, güclü təsirə malik, az öyrənilmiş, qida üçün yolverilməz inqredientlərin mövcudluğu qadağandır. Bu məhsullar dərman vasitələrindən fərqli olaraq qidalanmanın optimal fizioloji rasionunu təmin etmək üçün istifadə olunur. Farmakoloji effektlərə, kəskin əlavə təsirə malik olmur və yalnız fizioloji dəyişikliklər çərçivəsində insanın funksional aktivliyini qoruyub saxlamaq məqsədi daşıyır. Onlar müalicə üçün nəzərdə tutulmayıb.

**- Bu məhsulların sayı və çeşidi gündən-günə artmaqdadır...**

- Əvvəlcə bu məhsulların yaranma səbəblərindən danışmaq istərdim. BFMQƏ-nin dünya üzrə məşhur istehsalçıları bu məhsulları yeni və modern hesab etsələr də, onların primitiv formaları hələ ibtidai icma cəmiyyətində istifadə olunub. Güman edilir ki, ilk çoxkomponentli BFMQƏ Misir təbibləri tərəfindən eramızdan əvvəl V əsrdə icad olunub. Müasir BFMQƏ-nin yaranma tarixi XX əsrin əvvəllərindən başlanır və amerikalı kimyaçı Karl Rehnborgun adı ilə bağlıdır. Bu şəxs əvvəlcə hazırladığı məhsulları qida rasionunu yaxşılaşdırmaq məqsədi ilə dost-tanışa pulsuz paylayırmış. Uğurlu nəticələr onu bu məhsulları satış üçün istehsal etmək ideyasına gətirib çıxarır. 1934-cü ildə Karl Rehnborg kifayət qədər varlanır və "California Vitamins" adlı şrkət yaradır. Rehnborgun bu sahədəki nailiyyətini təkrarlamaq arzusunda olan bir çox şirkətlər 1970-ci illərdən etibarən BFMQƏ-nin patentləşdirilməsinə və istehsalına başlayırlar. Dərman vasitələrindən fərqli olaraq, onların illərlə heyvanlar və insanlar üzərində sınaqdan keçirilməsinə ehtiyac yoxdur. Üstəlik də böyük gəlir gətirir. Təsəvvür edin ki, əgər bir dərman vasitəsinin hazırlanması üçün vəsait xərci orta hesabla yüz min dollardan başlayırsa, BFMQƏ-nin hazırlanmasına 10 dəfə az pul kifayətdir. Fikrimcə, məhz bu səbəbdən BFMQƏ-nin sayı və çeşidi gündən-günə artmaqdadır. Bu məhsullar hazırda dünyanın bütün ölkələrində, xüsusən də Avropa ölkələrində populyardırr və böyük tələbat var. Həm də onları reseptsiz əldə etmək asandır deyə, əhali tərəfindən çox alınmaqdadır. Azərbaycanda isə dərman vasitələrinin qiymətləri Tarişf Şurası tərəfindən tənzimlədiyi üçün BFMQƏ-yə şamil olunmur və bu məhsullar maya dəyərindən qat-qat baha satılır.

**- Azərbaycanda bu məhsulların keyfiyyətinə hansı qurumlar nəzarət edir?**

- Ölkəmizdə BFMQƏ-nin idxalına, ixracına, istehsalına, satışına, dövriyyəsinə Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Onu da qeyd edim ki, konkret bir məhsulun dərman vasitəsi olub-olmamasına dair Səhiyyə Nazirliyinin "Analitik Ekspertiza Mərkəzi" publik hüquqi şəxs tərəfindən iki mərhələli ixtisaslaşdırılmış ekspertiza keçirilir. Fikrimcə, bu kateqoriyalı məhsulların iki müxtəlif qurum tərəfindən monitorinqinin keçirilməsi bu gün üçün çox vacibdir.

**- Nərgiz xanım, qeyd etdiniz ki, istehsaldan əvvəl bu məhsullar çox da dərindən araşdırılmır. BFMQƏ-nin istifadəsi ilə bağlı insanlara nə tövsiyə edərdiniz?**

- Tövsiyəm budur ki, hər hansı BFMQƏ-ni qəbul etməzdən əvvəl onun haqqında çoxlu məlumat əldə etsinlər, ailə həkimi ilə məsləhətləşsinlər. Müxtəlif saytların, şirkətlərin reklamına əsaslanaraq bu məhsulları almasınlar. Bəzən şahidi olmuşam ki, bu məhsulları bərbərxanalarda, idman zallarında, hətta avtobus dayanacaqlarında belə əhaliyə təklif edirlər. Bu məhsulların Səhiyyə Nazirliyindən rəy, Qida Təhlükəsizliyi Agentliyindən isə gigiyenik sertifikat alması barədə məlumat əldə etmək üçün müvafiq qurumların qaynar xəttinə müraciət etsinlər. Çünki bu qurumların nəzarətindən keçməyən məhsulların tərkibində bəzən resepturada təqdim olunmayan, hətta insan orqanizmi üçün təhlükəli hesab edilən maddələr aşkar olunur. Məsələn, çəkini tənzimləmək üçün sibutramin maddəsi, idman qidalarında steroid maddələr, potensiya üçün olanlarda sildinofil və s.

**- BFMQƏ reseptə həkim tərəfindən yazıla bilərmi?**

- Mövcud qanunvericiliyə görə yazıla bilməz, amma tövsiyə oluna bilər. Çünki bunlar qida məhsuludur. Amma məlumdur ki, bəzi həkimlər şəxsi mənafelərini güdür və bundan bir gəlir mənbəyi kimi istifadə edirlər. Belə hallara qarşı müvafiq tədbirlər görülmədir.

**- Bildiyimiz kimi, insan aptekə dərman vasitəsini almaq üçün yollanır. Dərman vasitələrinə çox oxşar BFMQƏ-nin apteklərdə satışının insanları çaşdıra bilməsinə necə baxırsınız? Digər tərəfdən, bəs BFMQƏ-nin marketlərdə satılması nə qədər düzgündür?**

- Bütün dünyada olduğu kimi, ölkəmizdə də BFMQƏ apteklərdə, superpermarketlərin xüsusi şöbələrində, ixtisaslaşdırılmış mağazalarda, həmçinin buna hüququ olan saytlar vasitəsi ilə satıla bilər. Bu sahədə islahatlar gözlənilir. Gələcəkdə apteklərdə bu məhsulların xüsusi şöbələrdə satılması nəzərdə tutulur. Bu halda, istehlakçının məhz hansı kateqoriyalı məhsulu alması ona şöbənin adından əvvəlcədən məlum olacaq. Aptekdə bu vasitələrin satılması cox vacibdir. Belə ki, burada heç olmasa, istehlakçı əczaçıdan məhsula dair məlumat ala bilər. Qaldı onların marketlərdə satışına, o da dunya təcrübəsindən götürülüb. Qeyd edim ki, bu yaxınlarda qonşu Türkiyədə həkimlər və əczaçılar BFMQƏ-nin yalnız həkim və əczaçının nəzarəti altında satışı ilə bağlı məsələ qaldırıblar. Hesab olunur ki, bu vasitələrin kontrolsuz qəbulu pandemiya dövründə daha çox ölüm hadisəsinə gətirib çıxarıb.

**- BFMQƏ olmadan insanın optimal fizioloji rasionunu təmin etmək mümkündürmü? Bununla bağlı nə məsləhət görərdiniz?**

- Əbəttə, müasir dövrdə həyat tərzimizlə bağlı düzgün qidalanmanı təmin etmək çətin olsa da, mümkündür. Hər insan öz orqanizmini hamıdan yaxşı tanıyır. Maksimal dərəcədə düzgün qidalanmaq lazımdır. Orqanik məhsullardan daha çox istifadəni tövsiyə edərdim. Çalışın ki, hər bir meyvəni, tərəvəzi öz mövsümündə istifadə edəsiniz. Xaricdən gətirilən GMO tərkibli məhsullardan bacardığınız qədər uzaq olun. Alimlər təsdiqləyiblər ki, insan orqanizmi doğulduğu məmləkətdə becərilən məhsulları daha yaxşı mənimsəyir. Bundan başqa, təmiz havada çox olun. Kifayət qədər istirahət edin. Bu amillər də fizioloji rasionu təmin etmək üçün çox vacibdir.

**M.ƏLƏKBƏRLİ**

# Vətən müharibəsində iştirak etmiş ATU əməkdaşları təltif olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Təltif olunanlar arasında ATU-nun əməkdaşı, "Təbib" qəzetinin baş redaktoru Məğrur Əliyev də var. Qeyd edək ki, o daha öncə "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdu.

Dövlət başçısının digər sərəncamları ilə döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Hər iki medalla təltif olunanlardan biri də ATU-nun əməkdaşı Kənan Orucovdur.






# Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyonu keçib

İyunun 24-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 66 min 10 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 36 min 942, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 29 min 68 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 3 milyon 146 min 350-yə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 34 min 554, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 111 min 796 nəfərdir.




# Müəllimlərimiz Astana Tibb Universitetinin tələbələrinə dərs keçib

**Azərbaycan Tibb Universitetinin Tibbi və bioloji fizika kafedrasının müəllimləri Astana Tibb Universitetinin tələbələri üçün onlayn mühazirə keçiriblər. Bu dərs akademik mobillik proqramı çərçivəsində aparılan təcrübə mübadiləsi sayəsində mümkün olub.**

27 may - 9 iyun 2021-ci il tarixlərində keçirilən "Səhiyyə sahəsində informasiya texnologiyaları" mövzusundakı dərslər ictimai səhiyyə ixtisası üzrə təhsil alan 2-ci kurs tələbələri üçün nəzərdə tutulub. ATU-nun adıçəkilən kafedrasının müəllimi Niyazi Hacızadə mövzu üzrə mühazirə zamanı maraqlı təqdimatlarla çıxış edib. Bu zaman pasiyentlərlə məsafədən əlaqəyə keçməyə imkan verən innovasiyalı servis və platformaların yaradılması, həkimlərlə onlayn müzakirələrin təşkili, tibb müəssisələrində müalicəvi proseslərin monitorinqlərinin aparılmasında informasiya texnologiyalarından istifadə və s. kimi mövzular haqqında ətraflı danışılıb. Həmçinin elektron cədvəllərdən istifadə etməklə məlumatların işlənməsi məsələsi də müzakirə olunub.

Astana Tibb Universiteti onlayn mühazirə üçün ATU-nun əməkdaşı N.Hacızadəyə təşəkkür edib. Qeyd edək ki, akademik mobillik - tələbənin və professor-müəllim heyətinin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində müvafiq olaraq sərbəst təhsil almaq, akademik fəaliyyət göstərmək hüququdur.

# Yağlardan təkrar istifadə orqanizmə mənfi təsir göstərir

**Yeməklərin hazırlanmasında yağlar böyük rola malikdir və qidalara dad verən ən əsas nemətlərdən biridir. Bəzən yağlardan təkrar istifadə edilərək xörəklər hazırlanır və bu, onun kimyəvi tərkibinin dəyişilməsinə səbəb olur.**



Mütəxəssislərin fikrinə görə, yağların təkrar istifadəsi hətta qarşısıalınmaz proseslərin əmələ gəlməsinə də səbəb ola bilər.

Yağlardan təkrar istifadə onunla qidalananlarla yanaşı, ondan yemək hazırlayanlarda da xəstəliklər yaradır. Ona görə də yeməkləri yağda bir dəfə bişirmək, təkrar istifadəyə yol verməmək lazımdır.

Müasir dövrdə yağların əksəriyyəti kimyəvi üsullarla hazırlanır. Ona görə də orqanizmə zərər yetirilməməsi üçün onlardan təkrar istifadə yolverilməzdir.

# Azərbaycanlı alim İlizarov Mərkəzinin fəxri professoru seçilib



**İyunun 15-18-də Rusiya Federasiyasının Kurqan şəhərində akademik Q.İlizarov adına Milli Tibbi Tədqiqat Travmatologiya və Ortopediya Mərkəzində (İlizarov Mərkəzi) görkəmli alim, dünya şöhrətli həkim, travmatoloq-ortoped, akademik Q.İlizarovun anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli konfrans keçirilib.**

Həmin konfransda Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun travma şöbəsinin elmi rəhbəri, əməkdar həkim, tibb elmləri doktoru, professor Qələndər Canbaxışova "Fəxri professor" adının simvolları təqdim olunub.

Qeyd edək ki, azərbaycanlı alim 3 mart 2021-cil ildə Q.İlizarov Mərkəzinin Elmi Şurasında yekdilliklə mərkəzin fəxri professoru seçilib.

# 22 sahibkarlıq subyekti qida təhlükəsizliyi qeydiyyatına alınıb



**Sahibkarlıq subyektlərinin qida təhlükəsizliyi qeydiyyatına alınması prosesi davam edir.**

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən, 2021-ci il iyunun 23-də qida məhsulları sahəsində fəaliyyət göstərən 22 sahibkarlıq subyekti qida təhlükəsizliyi qeydiyyatına alınıb.

Həmin tarixdə aparılan təftiş və ekspertiza nəticəsində qida təhlükəsizliyi qeydiyyatı ilə bağlı imtina halı qeydə alınmayıb.

Agentlik bir daha qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərini qida təhlükəsizliyi qeydiyyatından keçməyə və öz fəaliyyətlərini qanunvericiliyin tələbləri çərçivəsində həyata keçirməyə çağırır.

## Etibarsız sayılır

I Müalicə-profilaktika fakültəsinin V kurs, 160 A qrup tələbəsi İbişova Gülnur Ceyhun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 817 A 6 qrup tələbəsi Mehmet Fatih Kollu Orhan oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

II Mamalıq-ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Gültəkin Cavadovaya əzizi **Gülnar Cavadovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Umumi Cərrahiyyə kafedrasının əməkdaşları kafedranın assistenti Ələsgər Cavadova əzizi **Gülnar Cavadovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları **dosent Yusif Hidayətovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Ələmdar Cəfərova və ailəsinə əzizləri **Sabir Əliyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Müalicəvi bitki vannaları yayda çox tərləmənin qarşısını alır

**Tərləmə bədənin isti və soyuq balansını qorumaqda orqanizmin termorequlyasiya mexanizmini tənzimləyir. Lakin tərləmə normal halda olsa da, həddindən çox baş verməsi problemin olduğuna işarədir. Tərləmədən narahatlıq keçirənlərlə yay mövsümündə çox rastlaşırıq. Normadan artıq tərləmə hiperhidroz adlanır. Bu, sinir sistemi və xroniki xəstəliklər, xüsusilə vegetativ nevroz və virus infeksiyaları zamanı daha çox artır.**

Həkim-fitoterapevt Elnur Eldaroğlu hiperhidroz zamanı tətbiq edilən fitoterapiya üsulları barədə danışıb: "Müalicəyə tərləmənin səbəbini müəyyən etdikdən sonra başlamaq məsləhətdir. Nəzərə almaq lazımdır ki, tərləmə hava kəskin dəyişdiyi zaman daha çox baş verə bilər. Bu səbəbdən, çöldəki hava şəraiti ilə içəridəki havanın bir-birindən kəskin fərqlənməməsinə diqqət etmək lazımdır. Misal üçün, havanın temperaturu 35°-dirsə, məkanı 16°-ə qədər soyutmaq olmaz. Bu, orqanizm üçün ziyandır və xüsusən sinir sisteminə mənfi təsir göstərir".

Elnur Eldaroğlunun dediyinə görə, fitoterapiya ilə müalicə zamanı ən effektli təsirə malik bitkilərdən biri bənövşə çəyidir.

"Bundan başqa, yatiqqanqal, çobanyastığı və evkalipt bitkiləri də faydalıdır. Bu bitkilərin hərəsindən 1 xörək qaşığı olmaqla 1 litr qaynar suda dəmlənir. Sonra dəmləməni suya əlavə edərək müalicəvi bitki vannası qəbul etmək lazımdır. Bundan başqa suya çobanyastığı yağı və kəkliotunun efir yağı da əlavə edilə bilər. Müalicə üsulu ilə günəşırı vanna qəbul etmək çox tərləmənin qarşısını alır. Daxilə qəbul etmək üçün isə bənövşə və yatiqqanqal bitki çayları məsləhətlidir. Uşaqlarda tərləmədən sonra bişməcələr müşahidə edildiyi halda isə tənzifi bənövşə, yatiqqanqal və çobanyastığı kimi bitkiləri dəmləməsində isladıb bişməcə olan hissələri silmək kifayətdir", - deyərək həkim məsləhət verib.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKF-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250